**«Milli Məclis»**.-2013.-№1-2.-S.42-45.

# İnkişaf etmiş Azərbaycana doğru

**Aslan Cəfərov**
Milli Məclisin deputatı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2012-ci il dekabrın 29-da müvafiq dövlət orqanlarının, elmi təşkilatların və yüksək ixtisaslı mütəxəssislərin iştirakı ilə, həmçinin ölkədə fəaliyyət göstərən beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq şəraitində hazırlanmış "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasını təsdiq etdi. İnkişaf Konsepsiyasına əsasən, bu ildən ölkəmizin həyatında yeni səhifə açılır və Azərbaycan inkişafının yeni mərhələsi başlayır.

## Əsas hədəflər

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası milli inkişafımızın böyük kəmiyyət və keyfiyyət dəyişikliklərini özündə ehtiva edən yeni strategiyası olmaqla qarşıdakı 7 illik dövrdə Azərbaycanın konkret hədəflərini müəyyənləşdirir:

1. e-dövbt xidmətlərinin 100 faiz tətbiq edilməsi;
2. ÜDM-in 2 dəfədən çox artırılaraq adambaşına 13 000 ABŞ dollarına çatdırılması;
3. ÜDM-in orta illik real artım tempinin 7 faizdən yüksək olması;
4. regionlarda yolların 100 faiz qaydaya salınması;
5. kənd təsərrüfatında idxalı əvəzləmək və ixracyönümlü məhsullarla xarici bazarlara çıxmaq;
6. ölkənin regionun ticarət mərkəzinə çevrilməsi;
7. adambaşına düşən qeyri-neft sektoru üzrə ixrac həcminin 1000 ABŞ dollarına çatdırılması və s.

Kifayət qədər dərin elmi araşdırmaya, zəngin faktoloji bazaya və reallığa adekvat makroiqtisadi proqnozlara əsaslanan "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında müasir dövrün çağırışlarına uyğun olaraq ixracyönümlü iqtisadi model əsas götürülmüşdür və nəzərdə tutulur ki, iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi, strukturunun təkmilləşdirilməsi qeyri-neft ixracının artımına səbəb olacaqdır.

Konsepsiya çərçivəsində ÜDM-in 2020-ci ilədək 2 dəfə artaraq hazırkı 50 mlrd. manatdan 100 mlrd. manata çatacağı gözlənilir. Artımın əsasən qeyri-neft sektoru hesabına olması nəzərdə tutulub. Bu artıma çatmaq üçün Azərbaycanda ÜDM-in orta illik artım tempi 7% civarında olmalıdır.

## Regionların inkişafı prioritetdə saxlanacaq

Regionlarda sənaye müəssisələri yerli xammala əsaslanaraq müasirləşdiriləcək və yeniləri yaradılacaq, konsepsiya həyata keçirilən dövrdə ölkədə polad emalı, neft-qaz emalı və neft-kimya sənayesi kompleksləri, mineral gübrə, gəmiqayırma, tikinti materialları (xüsusən sement) zavodları tikiləcək, alüminium sənayesi inkişaf etdiriləcək. Bu istiqamətdə uzaqgörənliklə yaradılmış infrastruktur parametrlərinə görə qarşıya qoyulan məqsədlərə nail olmağa qadirdir. Məsələn, dövlətin dəstəyi ilə Gəncədə açılan alüminium zavodu ildə 50 min ton yüksək keyfiyyətli alüminium istehsal edir. Zavod bu rəqəmi 100 min, 200 min tona qədər qaldırmaq gücünə malikdir və bu məhsula dünya bazarında tələbat həddən artıq çoxdur. Bununla bahəm Prezident Gəncə Alüminium Zavodunun yanında texnopark yaradılması, alüminiumun hazır məhsul kimi istehsal edilməsi, həm daxili, həm də xarici bazarlara satılması üçün hökumətə göstəriş verib. Bu isə onlarla yeni müəssisə, yeni iş yerləri deməkdir.

Bundan başqa, qeyri-neft emalı sənayesinin inkişaf etdirilməsində dövlət investisiya siyasətinin əsas istiqamətlərindən biri də iqtisadi rayonlar üzrə sənaye şəhərcikləri infrastrukturunun yaradılmasıdır. Bu istiqamətdə artıq konkret addımlar da atılmaqdadır: Sumqayıtda neft-kimya məhsullarının emalı, Balaxanıda məişət tullantılarının emalı, Gəncədə metallurgiya (alüminium) sənayesi məhsullarının emalı və s.

Bunlarla yanaşı, güzəştli kreditlərlə kiçik və orta sahibkarlığın ixrac potensialının artırılması stimullaşdırılacaq. Paralel olaraq gömrük və miqrasiya prosedurlarının təkmilləşdirilməsi və sadələşdirilməsi istiqamətində də islahatlar davam edəcək.

Təbii ki, ölkədə rifahın artması vətəndaşların həyat komfortunun və məişət şəraitinin yüksəlməsində də əks olunacaq: ən ucqar kəndlər belə bütün kommunikasiyalarla (rabitə, internet, bank, kommunal xidmətlər, müasir yollar və s.), səhiyyə və mədəni-maarif xidmətləri ilə təmin olunacaq.

**İqtisadi zonaların yaradılması**

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında nəzərdə tutulan məsələlərdən biri də ölkənin müxtəlif ərazilərində xüsusi iqtisadi zonaların yaradılmasıdır. İlk mərhələdə Heydər Əliyev Beynəlxalq Hava Limanı ərazisində formalaşdırılacaq bu xüsusi zonalar növbəti mərhələlərdə regionlara doğru genişlənəcək.

Konsepsiyaya əsasən ölkənin beynəlxalq hava limanlarının və hava donanmasının yeniləşdirilməsi işləri davam etdiriləcək.

Vergilər Məcəlləsinə edilən son dəyişikliklərdən biri də xüsusi iqtisadi zonalar və sənaye parklarının 7 il müddəti- nə vergidən azad olunması ilə bağlıdır.

Qəbul edilmiş İnkişaf Konsepsiyasının həyata keçirilməsində, prioritet iqtisadi və sosial vəzifələrin həllində iqtisadi zonalar mühüm rol oynaya bilər. Bununla ölkə iqtisadiyyatının və onun ayrı-ayrı regionlarının inkişafı üçün əlverişli şəraitin yaradılması, investisiyaların təşviqi və prioritet sahələrə yönəldilməsi, yeni iş yerlərinin açılması, müasir idarəetmə təcrübəsinin istifadə edilməsi, rəqabət qabiliyyətli mal və xidmətlərin təqdim edilməsi kimi məsələlərin həllinə nail olmaq mümkündür. Dünyanın bir çox ölkələrində fəaliyyət göstərən belə zonaların çoxunda sürətli iqtisadi inkişaf müşahidə olunur.

Azərbaycan əlverişli coğrafi mövqeyinə və nəqliyyat qovşağında yerləşdiyinə görə bu cür zonaların yaradılması böyük faydalar vəd edir. Bundan başqa, beynəlxalq nəqliyyat dəhlizlərində Azərbaycanın rəqabət qabiliyyətinin artırılması üçün ölkə ərazisi ilə daşınmalar sadələşdiriləcək. Sənədə əsasən Avropa-Qafqaz-Asiya və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərində ölkənin rəqabət qabiliyyətinin artırılması məqsədilə Azərbaycan ərazisində yükdaşımalarla bağlı xərclərin azaldılması, idxal-ixrac əməliyyatları və tranzit üçün sərf edilən vaxtın qısaldılması, prosedurların sadələşdirilməsi tədbirləri həyata keçiriləcək.

Azərbaycanda bu layihənin reallaşdırılması üçün yerli xüsusiyyətlər nəzərə alınıb, bu layihələri uğurla həyata keçirən ölkələrin təcrübəsi öyrənilib.

Azərbaycanın əlverişli coğrafi mövqeyindən yararlanaraq enerji, nəqliyyat, tranzit və logistika infrastrukturunun inkişaf etdirilməsi ilə regional və beynəlxalq mərkəzə çevrilməsi tamamilə realdır.

**Gələcəyin leytmotivi**

Beynəlxalq Telekommunikasiya İttifaqının qiymətləndirməsinə əsasən Azərbaycan son 10 ildə İKT üzrə ən sürətlə inkişaf edən ölkələr sırasındadır. Prezident İlham Əliyev çıxışlarında həmişə vurğulayır ki, qeyri-neft sektorunda iqtisadi inkişafın prioritet istiqaməti informasiya-kommunikasiya texnologiyalarıdır: "...İKT bazarında qlobal oyunçulardan birinə çevrilmək əzmindəyik".

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının da əsas hədəflərindən biri biliklər iqtisadiyyatına əsaslanan cəmiyyətin qurulması hesabına neft amilinin qeyri- neft amili ilə əvəz olunmasıdır. Belə köklü inkişafın əsas sütunları isə elm, təhsil və texnologiyalardır. İnformasiya və kommunikasiya texnologiyaları (İKT) sosial-iqtisadi inkişafın təkanverici qüvvəsidir. Buna görə də İKT-nin sosial-iqtisadi tərəqqiyə təsir edən prioritet sahə kimi inkişafı qarşıya məqsəd qoyulmuşdur. İnkişaf Konsepsiyasında telekommunikasiya şəbəkələrinin inkişafında 2012-ci ildən 2020-ci ilə qədər olan inkişaf xətti göstərilmişdir.

Qeyd edək ki, Azərbaycanda bu istiqamətdə işlər çoxdan başlanıb. MDB regionunda ilk dəfə Azərbaycanda bütün yaşayış məntəqələri telefonlaşdırılıb, sabit telefon şəbəkəsi tam elektronlaşdırılıb və ölkə üzrə vahid nömrələmə sistemi tətbiq olunub. Ölkənin demək olar ki, bütün ərazisini əhatə edən bir dövlət və iki özəl fiber-optik magistral şəbəkəsi qurulub. Regionda internet xidmətlərinin ixracatçısı olan Azərbaycanda insanların 85 faizi internetdən, 50 faizi isə genişzolaqlı internetdən istifadə edir. Bu iki göstərici üzrə Azərbaycan dünya orta göstəricisini 2 dəfədən çox qabaqlayır. Ən yeni texnologiya olan 4G texnologiyasının tətbiqinə başlanılıb.

Azərbaycanda yüksək texnologiyaların tətbiqinə və ölkədə kosmik sənayenin yaradılmasına böyük diqqət göstərilir. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin prioritet elan olunması, 2013-cü ilin ölkədə İnformasiya-kommunikasiya texnologiyaları ili elan edilməsi bu sahənin inkişafına dövlət səviyyəsində göstərilən diqqətin əyani təsdiqidir. 2008-ci ildə "Azərbaycanda kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması", 2009-cu ildə ölkədə kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında Prezident İlham Əliyevin sərəncamları bu sahənin inkişafında dövlətin kifayət qədər maraqlı olduğunu nümayiş etdirdi. Bunun ardınca dövlətimizin başçısı 2010- cu ildə "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin təsis edilməsi haqqında Sərəncam imzaladı və həmin quruma telekommunikasiya peykinin istehsalı və orbitə çıxarılması, əsas və ehtiyat Yerüstü Peyk İdarəetmə Mərkəzinin yaradılması ilə bağlı xüsusi tapşırıq verildi. Qafqazda ilk peyk operatoru olan "Azərkosmos"un yaradılmasından sonra ölkəmizin ilk telekommunikasiya peyki 2013-cü ilin

fevralın 8-də orbitə çıxarıldı.

İlk peykimiz 50-dən artıq ölkəni birləşdirən məkanda mühüm iqtisadi rol oynayacaqdır. Azərbaycanın ilk telekommunikasiya peykinin buraxılması iqtisadiyyatın şaxələndirilməsi, informasiya müstəqilliyinin və təhlükəsizliyinin təmin edilməsi, ölkəmizdə kosmik sənayenin inkişaf etdirilməsi və beynəlxalq kosmik məkana inteqrasiya istiqamətində mühüm addım olmaqla yanaşı, kommersiya xarakterli və gəlirli bir layihədir. Belə ki, peykin resurslarının 20 faizi Azərbaycanın tələbatını ödəmək üçün istifadə olunacaq, qalan 80 faizi isə dünya bazarlarına ixrac ediləcəkdir. Artıq peykin resurslarının 40 faizinin satışı üçün şərti müqavilələr imzalanmışdır.

Peyk şəbəkəsinin yaradılmasını bir məqsəd kimi qarşıya qoyan Azərbaycan 2015-ci ildə yer səthini müşahidə peykini, 2016-cı ildə isə ikinci telekommunikasiya peykini orbitə çıxarmağı planlaşdırır.

Genişzolaqlı internet xidmətlərinin inkişafı, Trans Avrasiya Super İnformasiya Magistralı (TASİM) layihəsinin həyata keçirilməsi, avtomatlaşdırılmış radiomonitorinq sisteminin yaradılması, 3G və 4G xidmətlərinin tətbiqinin genişləndirilməsi, poçt-maliyyə xidmətlərinin genişləndirilməsi ən yaxın perspektivdə qarşıya qoyulmuş prioritet məsələlərdir.

Azərbaycanda İKT-nin inkişafında ixrac potensialının gücləndirilməsi gələcək inkişaf planının əsas hissələrindən biridir. Bu istiqamətdə məqsəd regionun əsas informasiya xidmətləri ixracatçısına çevrilməkdir.

2020-ci ilə qədər Azərbaycanda İKT ilə bağlı layihələrin həyata keçirilməsinə hökumət tərəfindən təxminən 3,6 milyard dollar vəsait xərclənməsi nəzərdə tutulur, bu sahədə gəlirin 9,3 milyard manata çatacağı gözlənilir.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında infrastrukturun inkişafının diqqət mərkəzində saxlanılması, eləcə də bu istiqamətdə Azərbaycan hökumətinin imkanları çox ümidvericidir.

Qeyd edək ki, İnkişaf Konsepsiyası dünya iqtisadiyyatında qlobal dəyişiklik proqnozları nəzərə alınmaqla hazırlanıb. Proqnozlara görə, böhrandan sonrakı dövrdə inkişaf etmiş ölkələrdə iqtisadi artım tempi inkişaf etməkdə olan ölkələrdən iki dəfə aşağı olacaq. Nəticədə inkişaf etməkdə olan ölkələr dünya iqtisadiyyatında önə çıxacaqlar. Əsas məsələ odur ki, hökumətin hazırladığı konsepsiya ölkəni məhz dünya iqtisadiyyatının hərəkətverici qüvvələri sırasına çıxarmağı hədəfləyir. Bu hədəflər bütövlükdə Azərbaycanı regionun lider dövlətindən beynəlxalq iqtisadi münasibətlər sistemində də yüksək rəqabətqabiliyyətli iştirakçısına çevirəcək.

Bir sözlə, İnkişaf Konsepsiyasının əsas hədəfi, 2020-ci ildə Azərbaycanı iqtisadi və siyasi cəhətdən inkişaf etmiş, rəqabətədavamlı ölkəyə çevirməkdir. Qarşıya qoyulan vəzifə nə qədər çətin olsa da, tamamilə realdır. Əgər "Azərbaycan- 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında nəzərdə tutulan bütün tədbirlər həyata keçirilərsə, 2020-ci ildən sonra Azərbaycan ÜDM-in həcminə görə inkişaf etmiş ölkələrlə müqayisə oluna bilər.

Azərbaycanın dövlət başçısı tərəfindən təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında müəyyən edilən hədəflər bir daha göstərir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün sahələri əhatə edən irimiqyaslı tədbirlərin həyata keçirilməsi bundan sonra da ölkəmizin davamlı inkişafını, onun dünyada mövqeyinin daha da möhkəmlənməsini və xalqımızın rifahının daha da yüksəlməsini təmin edəcəkdir.